# Ömrünü Vətənə verən oğul...



***44 günlük haqq savaşımızda canını Vətənə, torpağa fəda edən şəhidlərin ömür yolu qısa oldu. Lakin bu müqəddəs zirvədə qərar tutanlar yaşına uyuşmayan, zaman-zaman örnək olacaq bir igidlik, vətənpərvərlik nümunəsi göstərdilər və bununla da ölümsüzlük qazandılar. 30 ilə yaxın erməni əsarətində olan əzəli-əbədi yurd yerimiz Qarabağımızın qeyrətli, xilaskar ərənləri kimi tarixin yaddaşında silinməz iz qoyan, 44 günlük zəfərimizin mərdlik, qəhrəmanlıq simvoluna çevrilən belə Vətən sevdalılardan biri də 17 mart 1995-ci ildə Cəlilabad rayonu, Göytəpə qəsəbəsində dünyaya göz açan Elçin İlqar oğlu İsmayılovdur.***

Qanında Vətən eşqi, ana mehri, el sevdası Elçin orta məktəbi başa vurub. Yaxşı işlərə, xeyirxah əməllərə görə cəmiyyətdə hörmət sahibi olub. Həyatda şərəflə, ləyaqətlə yaşamağı Vətəninə, xalqına təmənnasız xidmətdə görüb. Həmçinin doğma yurduna, elinə bağlı, mərd, ağıllı adamlardan görüb-götürdüyü üçün gənc oğlanın sadəliyi, təvazökarlığı, daxili mədəniyyəti heyrət doğurub. Beləcə halallığa tapının, gözəl arzularla gələcəyə baxan Elçini qaldı ki, torpağına yağı dadanmış Vətənin taleyi çox narahat edib. Əsgərlik yaşı çatıb ordu sıralarına yola düşəndə başına toplaşan dost-tanışa dediyi də belə olub:- Millətimin xoş, azad gələcəyi naminə mübarizə meydanında işğalçı erməni dığaların başını əzməyə gedirəm. Yurdumuz dahilər diyarı, polad biləkli igidlər məskənidir. Ona murdar yağı ayağı yaraşmır...

Bəli, yurdunun tərəqqisi, insanların səadəti naminə yaşamağı bacaran Elçin İsmayılov əsgərlik həyatına tez öyrəşib. Cəbhə bölgəsində doğma Azərbaycana vicdanla, ləyaqətlə xidmət edib və Qarabağın azadlığı uğrunda döyüşə girməyə hər an hazır olub. Cəsurluğu, mərdliyi, igidliyi bütün işlərdə özünü göstərib. Vətənə sevgisi, yağıya nifrət hiss qatıldığı təlimlərdə yalnız Elçinə uğur gətirib. Əsgərliyi başa çatanda öz Vətənini qorumağı bacaran mükəmməl bir hərbiçiyə dönüb. Əlinə silah alıb yağı üstə getməyə gücünə tam güvənib...

2020-ci il 27 sentyabrda Vətən müharibəsi başlayan ilk gündən Elçin İsmayılov şiddətli döyüşlərə qatılıb. İşğalçı dığalardan ürəyincə qisas almaqla onların kabusuna çevrilib. Hər dəfə azad olunan Vətən torpağında qələbə bayrağımız dalğalananda igid əsgər yağıya qarşı daha da ürəklə vuruşub. Neçə-neçə odlardan, alovlardan keçərək yağıya qan qusduran Elçin Qaraxanbəyli kəndi istiqamətində gedən ağır müharibə meydanında son damla qanına qədər vuruşaraq şəhadətə qovuşub.

Cəlilabadın qəhrəman oğlu Elçin İsmayılov adını Azərbaycanın yeni, şanlı tarixinə yazmaqla, həm də dövlət onun göstərdiyi şücaətini "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görüb.

***Zəfər Orucoğlu, AJB üzvü***